***<u>Nümunə</u>***

*(namizədin, ali təhsil müəssisəsinin, elmi müəssisə və təşkilatın adı və digər məlumatlar şərtidir)*

**Azərbaycan Respublikasının**
**təhsil nazirinin ünvanına**

**RAZILIQ MƏKTUBU**

**Hörmətli cənab nazir,**

Azərbaycan Respublikasının vətəndaşı *Məmmədli Əli Məmməd oğlu* "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində xaricdə təhsil almaq və tədqiqatını başa çatdırdıqdan sonra "*X Dövlət Universiteti"ndə* pedaqoji fəaliyyətə cəlb olunmasına razılığın olmasına dair müraciət etmişdir. *Ə.Məmmədov Böyük Britaniyanın "Oxford University"* ali təhsil müəssisəsində doktorantura təhsil səviyyəsində *"Süni intellekt"* ixtisası üzrə təhsil almaq hüququ əldə etmişdir. Onunla ali təhsil müəssisəsində görüş keçirilib və tədqiqat sahəsi, təhsilinin başa çatdırdıqdan sonra akademik-inzibati fəaliyyətlə bağlı planları müzakirə edilib.

Azərbaycan Respublikası Nazirlər Kabinetin 2019-cu il 13 noyabr tarixli 444 nömrəli Qərarı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində xarici ölkələrin ali təhsil müəssisələrində doktorantura səviyyəsi üzrə təhsil alacaq Azərbaycan Respubilkası vətəndaşlarının seçim Qaydalarının" 3.2.2-ci bəndinə uyğun olaraq, *X Dövlət Universiteti Ə.Məmmədlinin* Dövlət Proqramı çərçivəsində təhsilini başa çatdıracağı təqdirdə, onun "*X Dövlət Universiteti"ndə* pedaqoji fəaliyyətə cəlb olunmasına razılığını bildirir.

Eyni zamanda, *Ə.Məmmədli* Dövlət Proqramı çərçivəsində təhsil almaq hüququ qazanacağı təqdirdə, onun Azərbaycan Respublikası Təhsil Nazirliyi və "*X Dövlət Universiteti"* arasında imzalanacaq Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq əmri ilə təsdiq edilmiş müqavilə üzrə tərəf müqabili olmağa etiraz etmirik.

Nəzərə almağınızı xahiş edirik.

**Hörmətlə,**
**Rektor**